**Teyyub ASLANOV**
Azərbaycan Respublikasının Xalq artisti,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
“Muğam sənəti” kafedrasının müdiri, ADMİU-nun dosenti
Ünvan: AZ1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39

DOI: 10.62440/AMK2024-4.s.56-63

# GÖRKƏMLİ XANƏNDƏ ZÜLFÜ ADIGÖZƏLOVUN YARADICILIQ XÜSUSİYYƏTLƏRİ

***Xülasə:*** *Təqdim olunan məqalədə Əməkdar artist, görkəmli xanəndə, muğam bilicisi, xalq mahnı və təsniflərinin təfsirçisi, xalq musiqisinin təbliğatçısı Zülfü Adıgözəlovun yaradıcılığının xüsusiyyətlərindən bəhs olunur. Məqalənin əsas məqsədi Z.Adıgözəlovun ifaçılıq, pedaqoji və musiqi ictimai fəaliyyətinin araşdırılması və səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsidir. Məqalənin əsas məqsədindən irəli gələrək, Z.Adıgözəlovun yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirən vəzifələr müəyyən olunmuşdur. Belə ki, Z.Adıgözəlovun yaradıcılıq fəaliyyətinin əsas məqamları və müxtəlif tərəfləri üzə çıxarılmışdır. Z.Adıgözəlovun Azərbaycan muğamlarının qanunauyğunluqlarını mükəmməl bilməsi, özünəməxsus aydın tələffüzə malik olması, klassik ənənələr çərçivəsində oxuması məqalədə xüsusilə vurğulanmışdır. Məqalənin elmi yeniliyi Z.Adıgözəlovun yaradıcılıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi və onlar haqqında ətraflı məlumatların verilməsidir. Məqalənin elmi əhəmiyyəti isə Z.Adıgözəlovun yaradıcılıq xüsusiyyətlərinin Azərbaycanda xanəndəlik sənətinin inkişafında rolunun müəyyən edilməsidir.*

***Açar sözlər:*** *Zülfü Adıgözəlov, xanəndə, muğam, xalq mahnısı, təsnif, xalq yaradıcılığı, sənətkar*

Görkəmli xanəndə, Əməkdar artist Zülfü (Zülfüqar) Adıgözəlov (1898-1963) klassik muğamların mahir bilicisi kimi Azərbaycan xanəndəlik sənətinin inkişafında mühüm rol oynamışdır. Ustad xanəndə muğam sənətinin sirlərinə dərindən bələd olmuş, təsnif və xalq mahnılarının təfsirçisi və təbliğatçısı kimi şifahi ənənəli professional musiqimizin tarixinə XX əsrin görkəmli xanəndəsi kimi daxil olmuşdur. Eyni zamanda o, mahir bir sənətkar kimi istedadlı gənc xanəndələrin də yetişməsi istiqamətində fəaliyyət göstərərək, onların sənət yolunun düzgün formalaşmasına böyük təsir göstərmişdir. Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndələri Əbülfət Əliyev, Əlibaba Məmmədov, Hacıbaba Hüseynov, Ağaxan Abdullayev, Tələt Qasımov, Sahib Şükürov və başqaları Zülfü Adıgözəlov məktəbinin parlaq davamçıları olmuş və muğam ənənələrinin yaşadılmasında öz töhfələrini vermişlər.

Z.Adıgözəlovun muğam sənətinə gəlişi 1920-ci illərə təsadüf edir. Onun həzin-həzin oxuduğu "Segah" muğamı Azərbaycanın tanınmış sənətkarları xanəndə Məşədi Məmməd Fərzəliyev və tarzən Məşədi Cəmil Əmirovun diqqətini cəlb etmişdi. Z.Adıgözəlovun "Segah"da şirin nəfəsli ifası və qəzəlin hər bir sözünü aydın surətdə dinləyiciyə çatdırması onu dinləyənləri riqqətə gətirirdi. Ən maraqlısı isə nəfəsinin axırında "Sənə nənəm qurban" ifadəsi ilə incə bir guşəxanlıq yaratması olmuşdur. Könüllərə həzinlik gətirən bu ifa gənc Z.Adıgözəlovun şərəfinə qədim Gəncə şəhərində, Məşədi Cəmil Əmirovun evində muğam məclisinin təşkil edilməsi ilə nəticələndi. Məşədi Məmməd Fərzəliyev, Malıbəyli Əsgər, Əli Cavad oğlu və başqa sənətkarların dəstgah oxuduğu həmin məclisdə Z.Adıgözəlov "Şikəsteyi-fars" oxuyur. Hamının həyəcan və eyni zamanda məmnunluqla dinlədiyi Z.Adıgözəlov muğamın "Əşiran" hissəsini bitirdikdən sonra hər kəs onu alqışlayaraq, muğam aləminə daxil olan gənc ifaçının səsinin sehrini hiss edirdi. Z.Adıgözəlovun ifasında Malıbəyli Həmidin oxuma üslubunun təsirini duyan Məşədi Cəmil Əmirov ona yaxşı sənətkar olacağını bildirməklə yanaşı, həm də muğam sənətinin sirlərinə yiyələnməyi məsləhət görərək, tövsiyələrini də edir: *"... oxumağın xoşuma gəldi. Gələcəkdə kamil bir xanəndə olmaq üçün səndə qüdrət var, özün də Malıbəyli Həmidin yolu ilə gedirsən. Bu çox gözəldir. Lakin bu yolu genişləndirib bəzəmək lazımdır... Yaxşı sənətkar olmaq üçün səs ilə kifayətlənmək olmaz"* [4, s. 427].

Bununla da Z.Adıgözəlovun həyatında yeni mərhələ başlanır. Məşədi Cəmilin evində təşkil olunan musiqi məclisləri sənət yolunda ilk addımlarını atan Z.Adıgözəlovun oxuma məktəbinə çevrilir və əhatə olunduğu mühit onun formalaşmasına böyük təsir göstərir. Bu illərdə Z.Adıgözəlov ustad sənətkarlardan muğam dünyasının sirlərini öyrənir, səsinin imkanlarını genişləndirir, səsi ilə ifasını mükəmməlləşdirməyə çalışırdı. O, qısa müddət ərzində "Rast", "Mahur", "Çahargah" və "Segah" muğam dəstgahlarını yeni nəfəslər işlədərək, mahir şəkildə ifa etməyə başlayır. 1926-cı ilin sonlarında isə Z.Adıgözəlovun adı ən tanınmış xanəndələrin arasında çəkilir.

1927-ci ildə Z.Adıgözəlovun sənət dünyasında böyük dönüş baş verir. Belə ki, Şuşada keçirilən musiqi məclisində Z.Adıgözəlovun ifasını dinləyən görkəmli xanəndə Cabbar Qaryağdıoğlu ona Bakıya gələrək bu şəhərdə fəaliyyət göstərməyi məsləhət görür. Həmin dövrdə Bakıda indiki Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində "Müdafiə evi" fəaliyyət göstərirdi və görkəmli muğam ustadının təklifi Z.Adıgözəlovun həyatında yeni mərhələnin başlanğıcını qoyur. Öz üzərində daim çalışan və oxuma üslubunu təkmilləşdirən Z.Adıgözəlov Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qurban Pirimov, Keçəçi Məhəmməd, Seyid Şuşinski kimi görkəmli sənətkarların qarşısında "Çahargah" muğamını ifa edir. Onun mükəmməl və aydın tərzdə səslənən ifası rəğbətlə qarşılanır və Z.Adıgözəlov solist kimi "Müdafiə evi"ndə fəaliyyətə başlayır. Əlamətdar haldır ki, Z.Adıgözəlovun təmiz və aydın tələffüzü, muğamı klassik ənənələrə uyğun şəkildə ifa

etməsi muğam sənətinin xırdalıqlarına tələbkarlıqla yanaşan tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

Həmin dövrdə Azərbaycan Radiosuna rəhbər təyin olunan Müslüm Maqomayevin təklifi ilə Z.Adıgözəlov burada fəaliyyətə başlayır. Radioda çalışdığı illər Z.Adıgözəlovun sənətkarlığının inkişafına böyük təsir göstərir. Onun daim çalışmağa cəhd etməsi, muğamla bağlı xüsusiyyətləri mənimsəməyə can atması, görkəmli sənətkarlar Qurban Pirimovdan və Cabbar Qaryağdıoğlundan sənətin sirlərini öyrənməsi, bəzən də sadəcə dinləyici kimi müxtəlif ifaları dinləməsi öz bəhrəsini verir və onu böyük sənətin yollarında uğurlara doğru aparır.

Z.Adıgözəlov yalnız xanəndəlik sənəti ilə, konsert fəaliyyəti ilə məhdudlaşmaq fikrində deyildi. Buna görə də səhnə həvəsi onun Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi çıxış etməsinə səbəb olur və o, bir çox tamaşalarda uğurlu rollar yaradaraq, fəaliyyətinin daha bir istiqamətini müəyyənləşdirir.

Ustad xanəndənin daha bir səciyyəvi cəhəti klassik muğam sənətində milli ruhun saxlanılması şərtilə onu inkişaf etdirməyə çalışmasıdır. Bəm səs tembrinə malik olan Zülfü Adıgözəlov (1898-1963) "Rast", "Segah Zabul", "Bayatı-Şiraz", "Mahur-hindi" muğam dəstgahlarını bəm səslə ifa etməklə, özünəməxsus oxuma üslubunu yaratmağa nail olmuşdur. O, muğam dəstgahlarını tam şəkildə səsləndirməyə üstünlük vermiş, bəm səsdə və orta tessiturada oxuma tərzini yaratmışdır. Z.Adıgözəlov muğam sənətinə sadiq sənətkar kimi ənənəvi forma və quruluşun müəyyən olunmuş qanunauyğunluqlarına riayət edirdi.

Muğamlarımızın saflığını qoruması, hər bir muğam dəstgahı üçün müvafiq qəzəllər seçmə bacarığının olması Z.Adıgözəlovun xanəndə kimi mühüm keyfiyyətlərini müəyyənləşdirmişdir. Xanəndənin tələffüzünün səlisliyi, sözləri deyilişinə xələl gətirmədən ifa etməsi Z.Adıgözəlovun pedaqoq kimi diqqət yetirdiyi məsələlərdən idi. Konsertlər və digər mühüm tədbirlər zamanı Z.Adıgözəlov tamaşaçılarla səmimi ünsiyyət quraraq, muğam sənətinin, təsnif və xalq mahnılarının parlaq təbliğatçısı kimi çıxış edirdi.

Z.Adıgözəlov pəsxan xanəndə kimi tanınmışdır. O, muğamları bəm səsdə məlahətli və bənzərsiz bir ustalıqla səsləndirirdi. Onun səsinin sehri dinləyiciləri qeyri-adi bir tərzdə məftun edirdi. Z.Adıgözəlovun ifası sanki dinləyiciləri düşündürür, təlaşlandırır və əksər hallarda isə keçmiş xatirələrin şirin aləminə aparırdı.

Repertuar baxımından Z.Adıgözəlov muğam və təsniflərə daha çox üstünlük vermişdir. "Zabul", "Mahur-Hindi", "Orta Segah" kimi muğamları Z.Adıgözəlov qeyri-adi həyəcan və nisgillə oxuyurdu. Eyni zamanda o, dinləyicini sakit tərzdə deyil, daxildən gələn emosionallıqla dinləməyə yönəltməyi bacarırdı.

Ustad xanəndə Zülfü Adıgözəlov ciddi axtarışları özündə birləşdirən muğam ifaçılıq xüsusiyyətlərini yaratmağa nail olmuşdur. Bu barədə görkəmli şərqşünas alim, akademik Rafael Hüseynov yazır: *"O, muğamların labirintlərinə kamil bələd idi, bir muğamın qapısından girib bu muğamın ruhunu incitmədən, səs-*

*lənmiş rəvanlığına xələl gətirmədən asudəcə elə gəldiyi rəvanlıqla əvvəlki muğama qayıdıb yolunu davam etdirə bilirdi”* [3, s. 262].

Muğam dəstgahlarının ayrı-ayrı uyğun şöbələrini birləşdirərək, mikrosilsilə kimi ardıcıllığını təmin edən Zülfü Adıgözəlov onun müstəqilliyini də qorumuşdur. Bu baxımdan “Əraq-Pəncgah”, “Hasar-müxalif”, “Vilayəti-Dilkeş” kimi muğamlar buna gözəl nümunədir.

Aydın tələffüzü, şirin danışığı və sözləri təmiz ifa etməsi Z.Adıgözəlovun xanəndə kimi səciyyəvi cəhəti idi. Onun ifasında hər söz əsl mənasında səslənir və zahiri boyalardan, hər hansı yad çalarlardan uzaq idi. Mahir xanəndə kimi səsləndirdiyi hər sözdə gözəllik axtarışında olur, məna və tələffüz qaydalarına riayət edir, bədii cəhətləri saxlamağa çalışırdı. Z.Adıgözəlovun tələffüzündə ahəngdarlıq, sözə yaradıcı münasibət, ifasında isə düzgün və təsirli oxuma üslubu nəzərə çarpırdı.

Z.Adıgözəlovun sözə və onun mənalarına həssaslıqla yanaşması təbii ki, onun ifa etdiyi muğamlarda poetik mətnin də xüsusiyyətlərinə olan münasibətini ifadə edirdi. O, muğamlarda oxuduğu qəzəllərin mətninə qeyri-adi məsuliyyətlə yanaşır, onları xüsusi diqqətlə seçir və bədii mətnin obrazının dərk edilməsinə çalışırdı. Z.Adıgözəlov hesab edirdi ki, söz və musiqi arasında vəhdət olmalıdır, onlar bir-birinin təsir gücünü artırmalı və insan duyğularına nüfuz etməyi bacarmalıdır. Bu baxımdan o, klassik şeir mətnlərini dərindən dərk edərək seçir, onların fəlsəfi mənasını, daxildə gizlənən məna çalarlarını duymağa çalışırdı. Z.Adıgözəlov klassik Azərbaycan şairlərinin qəzəlləri arasında Məhəmməd Füzulinin yaradıcılığına daha çox üstünlük verirdi. O, Füzulinin qəzəllərinin mənasını duyaraq, onları daxili həyəcan və emosionallıqla ifa edirdi. Z.Adıgözəlov söz sənəti ilə muğamın vəhdətini dərk edərək ondan bəhrələnirdi.

Xalq mahnıları da Z.Adıgözəlovun ifasında yeni rəng çalarları əldə edirdi. Belə ki, “Bir cüt sona”, “Nəbi”, “Dedim, bir busə ver”, “Kəklik” və digər mahnıları buna nümunə göstərmək olar.

Z.Adıgözəlov təsniflərin ifasında öz oxuma tərzini göstərməyə nail olmuşdur. O, təsnifləri adi şəkildə deyil, öz çalarlarını, nəfəsini daxil edərək oxumağa çalışırdı. Z.Adıgözəlovun təsnifləri sanki bir-birinin ardınca düzülmüş şirin kəlmələri və melodik dilin gözəlliyini ifadə edirdi. Onun ifa etdiyi təsniflər milli musiqi xəzinəmizi zənginləşdirən əvəzsiz sərvətlər hesab edilə bilər. Bu baxımdan Z.Adıgözəlovun ifasında “Gedirəm axı” təsnifi xüsusilə vurğulanmalıdır. Z.Adıgözəlov bu təsnifi bədahətən tətbiq etdiyi çalarlarla və aydın nitq bacarıqları ilə səsləndirirdi. Onun bu təsnifi təsirli ifa etməsi, sözləri aydın və düzgün tələffüzlə söyləməsi sanki dinləyiciyə həmin anları canlı şəkildə yaşadırdı. Z.Adıgözəlov təsnifi gözəl, oynaq və şirin çalarlarla ifa etmiş, melodiyanın ahəngdarlığını və məna çalarlarını saxlamağa nail olmuşdur.

Z.Adıgözəlov xalq musiqisinin inkişafında, muğam sənətinin ənənələrinin qorunub saxlanılmasında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynamışdır. O, klassik muğam ifaçılarının, xanəndələrin ənənələrini yaşadaraq, öz ifasında

bunları davam etdirirdi. Z.Adıgözəlovun ifasında “Rast” muğamı bütün qanunauyğunluqları, əsas xüsusiyyətləri saxlanılmaqla ifa edilmişdir. Z.Adıgözəlovun ifasında “Rast” muğamının vurğulanması təsadüfi deyildir. Məlumdur ki, Malıbəyli Həmid, Məşədi Cəmil, Çəmənli Məşədi Cəfər kimi mahir sənətkarlar “Rast” muğamının parlaq ifaçıları kimi tanınmışlar. Onların hər biri öz ifası ilə “Rast” muğamının səciyyəvi keyfiyyətlərini vurğulamış və bu muğamın məharətli sənətkarları hesab edilmişlər. Qeyd etməliyik ki, “Rast” muğamındakı “Mayeyi-Rast”, “Hüseyni”, “Vilayəti”, “Şikəsteyi-fars”, “İraq”, “Pəncgah” hissələrini düzgün oxumaq xanəndənin bacarıqlarını və düzgün oxuma qabiliyyətini nümayiş etdirir. Z.Adıgözəlov isə xüsusi məharətlə muğamın əsas şöbələrinin ardıcıllığını ifa edir, şirin tələffüzü və aydın ifası ilə müasirləri arasında öz oxuma tərzini fərqləndirməyə nail olmuşdur.

Z.Adıgözəlov “Rast” muğamında hər bir xırdalığı yüksək sənətkarlıqla göstərməyə çalışırdı. Onun bu muğam üzərində iş prosesi də maraq doğurur. Z.Adıgözəlov əvvəlcə muğamın hər bir hissəsini ayrı-ayrılıqda ifa edərək, onları dəfələrlə təkrarlayır, daha sonra isə dəstgah şəklində səsləndirirdi.

Bununla yanaşı, Z.Adıgözəlov muğamlar üzərində çalışarkən, Qurban Pirimovun da məsləhətlərindən bəhrələnirdi. İlk növbədə isə o, muğamın səciyyəvi xüsusiyyətlərini, bədii obrazlılığını, ifadə etdiyi məzmunu duymağa və onu öz ifasında göstərməyə çalışırdı. Z.Adıgözəlovun ifasında “Rast” əsl ifadə etdiyi mənada, mərdlik və düzgünlük rəmzi, Azərbaycan xalqının qəhrəmani keçmişinin tarixi inikası kimi səslənirdi. Z.Adıgözəlovun “Rast”ı dinləyicidə pak və nəcib duyğuları yaradır, şanlı qəhrəmanlıq tariximizə məhəbbəti aşılayırdı. Xüsusilə muğamın “Vilayəti” şöbəsində mərdlik və ləyaqət hissləri, cəsarət və şücaət, əzmkarlıq və rəşadət duyğuları daha aydın ifadə olunurdu. Z.Adıgözəlovun ifasında “Şikəsteyi-fars” şöbəsi isə xanəndədən insan şəxsiyyətinin gözəlliyini və ecazkarlığını göstərməyi, incəliyi təbliğ etməyi və insanın xoş arzulara olan inam hissini formalaşdırırdı. Xanəndənin xüsusi qanunauyğunluqla səsləndirdiyi şöbələrdən biri də “Əraq-Pəncgah” şöbəsidir. Bu şöbədə Z.Adıgözəlov insanı qətiyyətli olmağa, mübarizlik ruhuna aşılamağa nail olmuşdur. Onun bu yanaşmaları ifasında birləşərək, Z.Adıgözəlovun bənzərsiz və təkrarolunmaz ifaçılıq üslubunu, oxuma tərzini və məharətini səciyyələndirməyə imkan yaratmışdır. Z.Adıgözəlov oxuma tərzinə xas olan klassik çalarları tətbiq edərək “Rast” muğamını ənənəvi çərçivədə saxlamaqla yanaşı, melodik bəzəklərin düzgün şəkildə olmasına xüsusi diqqətlə yanaşmışdır. Eyni zamanda Z.Adıgözəlov “Rast” muğamının ifası zamanı yaradıcılıq fantaziyası ilə dəstgahı zənginləşdirmiş və müvafiq şöbələrin səciyyəvi obrazlılığını göstərməyə üstünlük vermişdir. Bu baxımdan “Rast” muğamının nümunəsində deyilənlər xanəndənin ifa etdiyi digər muğamlarda da özünü göstərir.

Z.Adıgözəlovun ifasında “Segah” muğamı təsirli və yanıqlı şəkildə səslənməsi ilə yaddaşlarda qalmışdır. O, “Segah”ın ifasında əvvəlki sənətkarların ənənələrini davam etdirsə də, öz çalarlarını bəxş etmişdir. Belə ki, Z.Adıgözəlovun “Segah”ı üçün

həyəcan və iztirablar dolu ifa daha səciyyəvi idi. Onun ifa etdiyi "Segah"da guşə və xallar sanki yenidən işlənilmiş və zənginləşdirilmiş xüsusiyyətlərə malik idi. "Segah"a müxtəlif çalarları daxil edən Z.Adıgözəlov xoş avazı ilə dinləyicini dərin hisslər aləminə aparmağa nail olmuşdur. O, "Segah"da səsinin gücünə deyil, öz ifaçılıq məharətinə əsaslanaraq, insanı duyğulandıran oxuma tərzi yaratmağa nail olmuşdur. Z.Adıgözəlov qəzəlxan şair Əliağa Vahidin qəzəlini "Segah" üzərində aydın nəzərə çarpan şirinliklə ifa edərək, insanın həssas duyğularını oyadırdı:

*Ey gül, səni axır bilirəm, öyrədən oldu!*
*Saldın məni hicranə, bu bilməm nədən oldu?*

Z.Adıgözəlovun "Segah"da bu yanıqlı və təsirli ifası dinləyicini xatirələrin əbədiyyətinə aparmağa qadir idi. Bu mənada Z.Adıgözəlovun ürəkdən təsirli oxuması, aydın şəkildə hər sözün mənasını sanki izah edərək səsləndirməsi və ən əsası isə özünə qarşı tələbkar olması xanəndənin dinləyicilər tərəfindən sevilməsini şərtləndirmişdir. O, milli dəyərlərimizi və klassik muğam sənətini yaşatmağa çalışmaqla, Azərbaycan xanəndəlik sənətində əvəzsiz rol oynamışdır. Təkrarolunmazlıq, pəsxan səsinin şirinliyi Z.Adıgözəlovun muğam sənətində mövqeyini müəyyənləşdirməklə, oxuma üslubunun özünəməxsusluğunu təsdiqləyir.

Z.Adıgözəlovun daha bir səciyyəvi xüsusiyyəti onun dərin musiqi yaddaşına və yüksək musiqi zövqünə malik olması idi. Muğam sənətini kamil bilən Z.Adıgözəlovun ifa etdiyi melodiyalar xüsusi şövqlə, ilhamla və təsirli səsləndirmə bacarığı ilə seçilirdi. Onun bəm ahəngli məlahətli səsi, həzin nəfəsi, muğamdakı xırdalıqları məharətlə ifa etməsi, xalları incəliklə oxuması Z.Adıgözəlovun muğamları səsləndirməsində nəzərəçarpan xüsusiyyəti idi. O, sanki ifa etdiyi muğamlara rəssam fırçası ilə yanaşaraq, onları bəzəməyə çalışırdı.

Zülfü Adıgözəlov maraqlı və hərtərəfli şəxsiyyət idi. O, yüksək istedadı, yaratdığı muğam oxuma məktəbi və yetişdirdiyi tələbələrlə yanaşı, həm də yüksək insani keyfiyyətlərə malik idi. Xanəndə, sazəndə, şairlərlə dostluğu, qayğıkeş insan, gözəl ata olması Zülfü Adıgözəlovun nəinki sənətkar kimi, həm də digər mühüm keyfiyyətlərini nəzərə çatdırır.

Xüsusilə vurğulamaq vacibdir ki, Qarabağ xanəndəlik məktəbinin təmsilçisi olan Zülfü Adıgözəlov həm də musiqi sənətinə və muğamın köklərinə dərin bağlılığı özündə yaşadan ailə ənənələrinin təməlini qoymuşdur. Z.Adıgözəlovun milli musiqi mənbələrinə bağlı olan təfəkküründən süzülən ənənələr onun övladlarının da həyat yolunun istiqamətlənməsinə bilavasitə təsir göstərmiş və Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynayan üç görkəmli sənətkarın yaradıcılığının formalaşdırılmasında müstəsna rol oynamışdır. Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Adıgözəlov (1935-2007), müğənni və violin ifaçısı, Əməkdar incəsənət xadimi Rauf Adıgözəlov (1940-2002), dirijor, Xalq artisti Yalçın Adıgözəlov (1959) məhz Zülfü Adıgözəlovun musiqi ocağının parlaq nümayəndələridir. Qarabağ musiqi ənənələrinin davamçısı olan Z.Adıgözəlov malik olduğu keyfiyyətləri övladlarına ötürməyi bacarmış və milli musiqi mə-

dəniyyətimizin inkişafında mühüm səhifəni öz imzası ilə açmışdır. Adıgözəlovlar Qarabağ musiqi mühitinin məşhur musiqi nəsli kimi Azərbaycan musiqi mədəniyyətində milli ənənələrin qorunması istiqamətində mədəni dəyərləri qorumağa nail olmuşlar. Təbii ki, Z.Adıgözəlovun yaratdığı muğam sənətinin saflığına əsaslanan musiqi mühiti və milli ənənələrdən yoğurulan ailə dəyərləri övladlarının da musiqi təfəkkürünün formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Sadalanan bu xüsusiyyətlər Z.Adıgözəlovun yaradıcılığının səciyyələndirilməsində onun bir sənətkar kimi hərtərəfli cəhətlərini nümayiş etdirir və eyni zamanda görkəmli sənətkarın Azərbaycan xanəndəlik sənətinin inkişafında malik olduğu mövqeni səciyyələndirir.

Z.Adıgözəlovun bir sənətkar kimi xatirəsi yalnız yaddaşlarda deyil, həm də musiqi əsərlərində də qorunub saxlanılır. Böyük oğlu, görkəmli bəstəkar Vasif Adıgözəlovun "Segah" muğam simfoniyası atası Z.Adıgözəlovun xatirəsinə ithaf olunmuşdur. Maraqlıdır ki, "Segah" muğam simfoniyası ilk dəfə 2005-ci ildə - Vasif Adıgözəlovun 70 illik yubiley tədbirində, Z.Adıgözəlovun nəvəsi, dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin ifasında səsləndirilmişdir. Hesab etmək olar ki, Z.Adıgözəlovun həmin gün ruhu şad idi və o, milli musiqi ənənələrimizin yaşadılmasını yüksəkliklərdən hiss edirdi. Z.Adıgözəlovun muğam sənətinin kamilliyini saxlaması onu səciyyələndirən mühüm amil olmaqla yanaşı, həm də milli musiqimizin inkişafına mühüm töhfə kimi dəyərləndirilə bilər. O, klassik muğamları rövnəqləndirən və xalqımızın tükənməz sərvətini gələcək nəsillərə ötürən mahir sənətkar kimi hər zaman xatırlanacaqdır.

**ƏDƏBİYYAT:**

1. Axundova G.Ə. Azərbaycanda xanəndəlik ənənəsinin və vokal mədəniyyətin yaranması və inkişafı. Monoqrafiya. B.: ADPU, 2009, 160 s.
2. Faseh R.M. Azərbaycan muğamlarında söz və musiqinin əlaqəsi. B.: Çıraq, 2004, 144 s.
3. Hüseynov R.B. Vaxtdan uca. B.: İşıq, 1987, 363 s.
4. Şuşinski F.H. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı, 1985, 478 s.
5. Zöhrabov R.F. Azərbaycan muğamları. B.: Təhsil, 2013, 336 s.
6. Zülfü Adıgözəlov. B.: Şərq-Qərb, -2017, 125 s.
7. Zülfü Adıgözəlov – xatirələrdə. B.: Şur, 1999, 140 s.

**Тейюб АСЛАНОВ**
Заведующий кафедрой «Искусство мугама» Азербайджанского
Государственного Университета Культуры и Искусств,
Доцент АДУКИ

## ТВОРЧЕСКИЕ ОСОБЕННОСТИ ВЫДАЮЩЕГОСЯ ХАНЭНДЭ ЗУЛЬФУ АДЫГЕЗАЛОВА

***Аннотация:*** *В представленной статье подчеркивается особенности творчества Зульфу Адыгезалова, заслуженного деятеля искусств, выдающегося*

*певца, знатока мугама, интерпретатора народных песен и теснифа, пропагандиста народной музыки. Основная цель статьи – исследовать исполнительскую, педагогическую и музыкально-общественную деятельность З.Адыгезалова и определить его характерные черты. Исходя из основной цели статьи, определены задачи, основанные на творческих особенностях З.Адыгезалова. Таким образом, были раскрыты основные моменты и различные аспекты творческой деятельности З.Адыгезалова. В статье особо подчеркивается, что как исполнитель З.Адыгезалов прекрасно знал закономерностей азербайджанских мугамов, а также освещено его уникальное чистое произношение, пение в рамках классических традиций. Научная новизна статьи заключается в выявлении особенностей творческого пути З.Адыгезалова и предоставлении подробной информации о них. Научное значение статьи заключается в определении роли творческого своеобразия З.Адыгезалова в развитии певческого искусства в Азербайджане.*

***Ключевые слова:*** *Зульфу Адыгезалов, певец, мугам, народная песня, теснифы, народное искусство, художник*

**Teyyub ASLANOV**
Head of the Department of "Mugham Art" of the
Azerbaijan State University of Culture and Arts,
Associate Professor of ASUCA

## CREATIVE CHARACTERISTICS OF THE OUTSTANDING ARTIST ZULFU ADIGÖZALOV

***Abtract:*** *The presented article discusses the features of the creativity of Honored Artist, prominent singer, mugham expert, interpreter of folk songs and classifications, folk music promoter Zulfu Adigozalov. The main purpose of the article is to investigate Z.Adigozalov`s performing, pedagogical and musical public activities and to identify their specific features. Proceeding from the main purpose of the article, the tasks that determine the creative features of Z.Adigozalov have been identified. Thus, the main points and various aspects of Z.Adigozalov`s creative activities have been revealed. Z.Adigozalov`s perfect knowledge of the regularities of Azerbaijani mughams, his unique clear pronunciation, and his singing within the framework of classical traditions are especially emphasized in the article. The scientific novelty of the article is the identification of Z.Adigozalov`s creative features and the provision of detailed information about them. The scientific significance of the article is the determination of the role of Z.Adigozalov`s creative features in the development of the art of singing in Azerbaijan.*

***Keywords:*** *Zulfu Adigozalov, singer, mugham, folk song, classification, folk art, artist*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru Bəyimxanım Vəliyeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru Humay Fərəcova